**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

№ 50 (1418) 11 mart - 14 mart 2017-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# Hüseyn Kürdoğlunun poeziyasında Azərbaycan təbiəti

*(Əvvəli ötən sayımızda)*

Yaxşı yadımdadır, 1970-ci il olardı. "Laçın" qəzetində ayda bir dəfə şeir həvəskarları, gənc yazarlar toplaşardılar. "İşıqlı üfüqlər" ədəbi yaradıcılıq məclisinə, "şivərək", nazik boy-buxunlu, çatmaqaşlı, əsl dağ adamlarına məxsus xoş təbəssümlü bir nəfər qonaq gəlmişdi. Həmişəki kimi, şair Tapdıq Nəcib yenə gəncləri başına toplamışdı. Bu dəfə görüşə Hüseyn Kürdoğlu gəlmişdi. Tapdıq Nəcib həmyerlimizin həyat yaradıcılığı haqqında məlumat verdi, bizləri tanış etdi. Gənclər təzə şeirləri, bədii yazılarını oxudular. Hüseyn müəllim təzə yazdığı, yeni şeirlərini də oxudu. Tanışlığımız onda yarandı. Söhbət zamanı, şeirlərini oxuyanda yenə gur saçları sanki onu fikirdən yayındırmağa çalışırdı. O, yenə barmaqları ilə saçlarını daraqlayırdı. Ara-sıra saçlarına dən düşmüşdü Hüseyn müəllimin. Laçın dağlarının zirvəsində yığılıb qalan bəyaz qar sanki Hüseyn müəllimin saçlarına köçməyə hazırlaşırdı...

Bizim eldə, obada belə bir söz vardı. Hərdən onu belə də deyərdilər - kasıb, kasıb uşağa da kasıb? kasıbın nəyi də olmasa, övladdan varlı olar - deyiblər. Həsən atanın, Fizzə ananın xoşbəxt bir ailəsi vardı. Bu ailədə Hüseyn, Seyfi, Sehrayə, Alışan, Sürayyə, Urşan, Fehruz və Şirindil dünyaya göz açmışdılar.

Seyfi orta məktəbi bitirəndən sonra ADU-nin coğrafiya fakültəsinə qəbul olmuşdu. Gənc müəllim kimi Qarqışlaq, Qoşasu kənd məktəbində müəllim, RPK-da təlimatçı, Ocaqulu adına sovxozda, Əhmədli kənd məktəbində direktor vəzifəsində işləmişdir.

Alışan - orta məktəbi bitirəndən sonra Laçın rayon Mədəniyyət şöbəsində, Ocaqulu adına sovxozunda, təsərrüfat işlərində, heyvandarlıq sahəsində ferma müdiri vəzifəsində işləmişdir.

Urşan - orta məktəbi bitirəndən sonra kolxoz və sovxozda heyvandarlıq sahəsində çalışmışdır.

Fehruz isə gənc yaşlarında dünyasını dəyişmişdir.

Şirindil - 1952-ci ildə Əhmədli kəndində anadan olmuşdur. Bakı şəhərində 19 və 111 saylı məktəblərdə orta təhsil almışdır. 1970-75-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində təhsilini davam etdirmişdir. Ədəbi tənqid üzrə ixtisaslı kadr kimi 1976-97-ci illərdə Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunda elmi işçi, elmi katib, bölmə müdiri vəzifəsində çalışmışdır. 1977-90-cı illərdə SSRİ EA Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində çalışmış, məşhur estetik Yuri Borevin rəhbərliyi ilə romantizm problemlərinə həsr olunmuş namizədlik dissertasiyası yazmış və 1991-ci ildə müdafiə etmişdir. Dörd kitabın və yüzdən artıq elmi və ədəbi-tənqidi məqalənin müəllifidir. Filologiya elmlər doktoru, professordur. AMEA Nizami adına Ədəbiyyat İnstitutunda, XX əsr Ədəbiyyatı şöbəsinin müdiridir.



Hüseyn uşaq vaxtında "zirəng" olmuşdu. Hamıdan böyük idi. Həyatı Əhmədli kəndində, ecazkar dağ təbiətinin qoynunda keçən, fəsillərin əfsanəvi gözəlliklərinə biganə qala bilməzdi. 200-dən çox fərdi təsərrüfatda şəxsi həyətdə 40-dan çox təbii su mənbəyi, buz bulaqları torpağın dərin qatından fəvvarə vurararq yaşayış evlərinin həyətindən yerin üst qatına çıxmışdır. Bir çox evin həyətində təbii, müalicə əhəmiyyətli bulaq qaynayardı. Yaxınlıqdan Minkənd çayı axırdı. Min bir dərdlərin dərmanı, təbii müalicə əhəmiyyətli İstisu burada insanlara şəfa verirdi. Sanki hər bir dərədə, Abadxeyir dərəsində 100 bulaq, su mənbəyi, hər bir bulağın bir xəstəliyə dərmanı idi. Yay fəslində qonaqlı-qaralı olardı bu yerlər.

Hüseyn tələbəlik illərinin , ilk günlərdən universitetdə nümunəvi, əxlaqi keyfiyyətlərinə görə dərin hörmət qazanmağa başlamışdı. Yazdığı şeirləri, əziz müəllimi, şair Səməd Vurğunu maraqlandırmağa sövq edir. Xoşuna gəldiyi üçün ona "Kürdoğlu" təxəllüsü ilə yazmağı məsləhət görür. Bir çox şeirləri dövrü mətbuatda işıq üzü görməyə başlayır. Bir sıra şeirləri almanaxlarda ardıcıl çap olunur, bəyənildiyi üçün şeirləri haqqında müsbət rəylər yazılır.

*Salonun qapısı açılır bu an,*
*Sanki dağ zirvəli bir dağ görünür,*
*Talıstan cüssəli sadə bir insan,*
*Dalğalı saçları dümağ görünür.*
*İlk dəfə görürəm, dostlar, bu axşam,*
*Elin şair oğlu Səməd Vurğunu,*
*Mən bu xatirəni yaşadacağını,*
*Könül rübabında ömrüm uzunu.*

Belə ki, Hüseyn Kürdoğlu şeir-sənət aləminə ilk qədəm qoyanda, ona ilk uğurlu yol diləyən "İlk yaradıcılıq dövrü" adlı diplom işinin elmi rəhbəri məhz əziz müəllimi, sevdiyi bir insan Səməd Vurğun özü olmuşdur. "Hüseyn Kürdoğlu ömrünün sonuna kimi klassik şair Səməd Vurğunu vəsf etdi və onun poeziya məktəbinin görkəmli nümayəndəsi oldu" (Qəzənfər Paşayev).

Hüseyn Kürdoğlu Azərbaycan Dövlət Radio və Televiziya Komitəsində redaktor kimi əmək fəaliyyətinə başlamışdı. Həmin ildə o, müasir həyatımızın bir sıra aktual məsələlərinə həsr etdiyi maraqlı oçerklərini yazmağa başlamışdır.

Hüseyn Kürdoğlu 1960-cı ildə Azərbaycan SSR Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda elmi işçi kimi əmək fəaliyyətin başlamışdır. Kürd dili bilmədiyi halda o, kürdşünas olmaq arzusuna düşür. Qısa bir vaxtda kürd dilini və kürd ədəbiyyatını öyrənməyi lazım bilir. O, böyük bir həvəslə kürd dilini öyrənməyə başlayır. Artıq altı aydan sonra o, kürdcə müstəqil danışmağı və yazmağı öyrənir. Kürd xalqının sənət incilərini yorulmadan öyrənir, maraqlı tədqiqat işləri aparır.

Nəhayət, yuxusuz gecələr, gərgin axtarışlar öz bəhrəsini verir. 1966-cı ildə Hüseyn Kürdoğlu "Müasir kürd şairi Abdulla Qoranın poeziyası" mövzusunda dissertasiya müdafiə edir və ona filologiya elmlər namizədi, alimlik dərəcəsi verilir. Gənc alimin elmi əsərinə yazılan rəylərdən aydın olur ki, əsər yüksək bədii dildə yazılmış, tərcümə də mənalı, gözəl və dolğun cümlələr çıxmış, Abdulla Qoranın yaradıcılığı dərindən təhlil olunmuşdur. Əsər alimin elmi rəhbəri, kürdşünas Rəhim Qazi, Asiya xalqları institutunun Sankt-Peterburq (Leninqrad) filialı kürd kabinetinin müdiri, filologiya elmlər namizədi K.K.Kurdoyev, Yerevan kürdşünaslarından (vaxtı ilə) Orduxan Cəlili, dosent M.Mübariz, işin rəsmi opponentləri, filologiya elmlər doktoru Kamran Məmmədov və Sankt-Peterburq (Leninqrad) Elmlər Akademiyasının elmi işçisi, filologiya elmlər namizədi Kərim Əyyubi tərəfindən yüksək qiymətləndirilmişdir.

Əsər 1969-cu ildə Elmlər Akademiyasının nəşriyyatı tərəfindən monoqrafiya şəklində çapdan çıxmışdır. Qeyd etmək lazımdır ki, əsər respublikada kürd ədəbiyyatının öyrənilməsi sahəsində atılan ilk addımlardan biri olmuşdur.

**Hüseyn Kürdoğlu uzun müddət demokratik kürd ədəbiyyatında əvəzolunmaz bir alim kimi elmi nailiyyətlər əldə etmişdir. Tərcüməçilik sahəsində də öz əməyini, qələmini sınaqdan keçirmişdir. O, kürd şair və naşirlərinin də - Ə.Həjarın, A.Qoranın, R.Qazinin, Ə.Aqrinin və başqalarının bir sıra əsərlərini azərbaycan dilinə çevirmişdir. Ə.Həjarın "Kürd nəğmələri" kitabında tərcümələrin əksəriyyəti Hüseyn Kürdoğluna məxsusdur. O, Rəhim Qazinin "Peşmərqə" adlı povestini, A.Qoranın milli azadlıq hərəkatına həsr etmiş şeirlərindən müvəffəqiyyətlə tərcümə etmişdir. O, eyni zamanda Məhdimquludan, S.Stalskidən, Sayat-Novadan və bir sıra ölkələrin yazıçılarından yüksək səviyyədə müvəffəqiyyətlə tərcümələrin müəllifi olmuşdur.**

**(Ardı var)**

***Nemət BƏXTİYAR***
***AJB-nin üzvü***